# Softline Velvet Smooth




## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Penguin Softline Velvet tam mat bitişli  və səthin nəfəs almasını təmin edən yüksək keyfiyyətli su əsaslı antibakterial boyadır. Yüksək örtücülüyə malikdir, səthə asan yayılır, quruduqdan sonra səthdə ipək kimi yumşaq və hamar bir bitiş yaradır. Silinə və yuyula biləndir. Ətraf mühitə zərərsiz və qoxusuzdur.

### İstifadə olunacaq səthlər

Bu antibakterial daxili boya səthdə bakteriya, mikroorqanizm yaranmasının qarşısını almaq üçün xüsusi formul ilə hazırlanmışdır. Gigiyenik mühit tələb olunan sahələrdə — uşaqların otaqları, məktəb və bağça sinifləri, tibb müəssisələri, xəstəxanalar, klinikalar və digər sağlamlıq obyektləri üçün təhlükəsiz və uyğun seçimdir. Məhsul həm estetik görünüş, həm də yüksək səviyyədə sanitariya tələblərinə cavab verir
Alçı, beton, şpaksla (mastika) hazırlanmış səthlər, kərpic, karton, taxta səthlər, kartonla örtülmüş alçıpanel, yonga-lövhə və taxta lif lövhələrinin daxili boyanması üçün istifadə oluna bilər. Məhsul həm yeni, həm də əvvəlcədən boyanmış səthlər üçün tətbiq edilə bilər. Qapı və mebellərin boyanması üçün uyğun deyil.

### Səthin hazırlanması

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən və yağ qalıqlarından təmizlənməlidir. Düzgün bir səth əldə etmək üçün səthə üzlük suvaq vurulmalı, daha sonra lazım olarsa səth sumbata olunmalı və Penguin Binder ilə astarlanmalıdır. Astar tətbiqindən 2-3 saat sonra səth boyanmağa hazırdır. Səth tempraturu $+5-+30^0C$ arasında olmalıdır, nisbi rütubət 80%-i keçməməlidir. Məhsul ən çox 5% su ilə durulaşdırıla bilər. İki qat şəkildə fırça və ya rulo ilə tətbiq edilir. Qatlar arasında 4-6 saat gözlənilməlidir (Otaq tempraturundan asılı olaraq).

### Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Multicolor sistemi ilə rəngələnə bilər. |
| **Qatı maddə miqdarı** | 58% |
| **Sıxlığı (q/ml)** | 1.3 |
| **Parlaqlıq** | Full matt. 6/RT - classification |
| **İncəltici** | 5-10 %-ə qədər su ilə incəldilə bilər |

### Boya sərfiyatı

**Teorik örtmə qabiliyyəti:** 8–12 $m^2$/litr. **Tövsiyə edilən quru film qalınlığı:** 36–46 µm. Praktiki örtmə qabiliyyəti **tətbiq üsulundan, şəraitdən, səthin formasından və səthin kobudluğundan** asılı olaraq dəyişir

### Tətbiq üsulları

**Püskürtmə** Havasız tapança istifadə oluna bilər (nozzle 0.017"–0.021" – thinning 0–10% by volume)
**Fırça** Uyğundur

"CMT GROUP" MMC
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

PENGUIN® ORIGINAL PAINTS

# Softline Velvet Smooth

## Texniki Məlumat Səhifəsi

**Rulo** Uyğundur

## Quruma müddəti

**Səth quruma vaxtı: təxminən 30 dəqiqə. Yenidən boya tətbiq etməyə yararlı vaxt: 1-2 saatdan sonra**

Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)

Boya məsləhət edilən qalınlıqda vurulmalıdır

Nisbi rütubət 70%-dən yuxarı olmamalıdır

## Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, birbaşa günəş şüaları düşməyən depolarda, +10˚C ile +35˚C arasında qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Yararlılıq müddəti açılmamış qablaşdırmasında 3 ildir.

Donmadan qoruyun. Pis bağlanmış və ya səthi qapağı olmayan qablar və ya rənglənmiş məhsullar uzun müddət saxlanmaya dözmür. Rənglənmiş məhsullar eyni boyama mövsümü ərzində istifadə olunmalıdır.

## Qablaşdırılma şəkli

15 lt-lik dəmir qablarda istehsal olunur.

## Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

## Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəngdə rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

## Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

## Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

# Softline Velvet Smooth

## Texniki Məlumat Səhifəsi

S 2 : Uşaqların əli çatdığı yerlərdən uzaq tutun.
S 3 / 7 : Qabı sərin yerdə,ağzı bağlı halda saxlayın.
S 24 / 25 : Göz və dəri ilə təmasdan qoruyun.
S 29 : Kanalizasiyaya atmayın.
S 46 : Udulduğu halda dərhal həkimə müraciət edin, qabı və ya etiketi göstərin.

**Qeyd:** *"CMT GROUP" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az